Uşaqlar üçün Müqəddəs Kitab

təqdim edir

# Fırıldaqçı Yaqub



Müəllif: Edward Hughes
İllüstrasiya edən: M. Maillot; Lazarus; Alastair Paterson
Uyğunlaşdıran: M. Kerr; Sarah S.
Tərcümə edən: Günay Əsədova
Təqdim edən: Bible for Children
www.M1914.org

BFC
PO Box 3
Winnipeg, MB R3C 2G1
Canada

©2021 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini
çıxarda bilmək hüququna maliksiniz.



Heç Allah sizin ailəyə uşaq göndəribmi? Necə də gözəl! İshaq və Rivqa yəqin ki, ikiqat sevinc içində idilər. Allah onlara əkiz övlad verəcəkdi.

Körpələr Rivqanın bətnində mübarizə aparırdılar.  O dua edəndə, Allah ona dedi ki, onun oğulları iki millətin rəhbərləri olacaq və böyüyü kiçiyinə qulluq edəcək.



Əkizlər bir-birlərinə oxşamırdılar.  Böyük oğlan Esav çox tüklü idi və böyüyəndə mahir ovçu oldu.  Yaqub hamar dərili idi və ev işləri görməyi sevirdi.  Atası İshaq Esavı daha çox sevirdi.  Yaqub isə anasının sevimlisi idi.



Bir gün Esav acdı. “Mənə yemək ver”, o, Yaquba dedi. “Əvvəlcə öz ilk oğulluq haqqını mənə sat”, Yaqub tələb etdi. Esav Allahın ilk oğulluq üçün olan vədlərinə etinasızlıq edirdi. O, Yaqubla şərt kəsdi. İndi Yaqub atası öləndən sonra ailəsinin başı olacaqdı.



Bir gecə Allah İshaqla danışdı: “Mən atan İbrahimin Allahıyam. Mən səninləyəm. Sənin nəslinə xeyir-dua verəcəyəm”. İshaqın Allaha ibadət etməsinə baxmayaraq, onun oğlu Esav Allahı tanımayan Xetlilərdən iki arvad aldı.





İshaq yaşlandı. “Xahiş edirəm, mənə təzə ət gətir”, o, Esava dedi. “Onda mən sənə xeyir-dua verəcəyəm”. Bu, atadan ilk oğula verilən xüsusi xeyir-dua idi. Esav ov etməyə tələsdi, lakin Rivqa bunu eşitdi. O, Yaqubun xeyir-dua almasını istəyirdi.



Rivqanın planı var idi.  O, İshaqın sevdiyi yeməyi hazırlayarkən Yaqub Esavın paltarını geyindi və tüklü heyvan dərisini öz qollarına və boynuna sarıdı.  İshaq yaxşı görmürdü.  Bəlkə onlar onu aldada bildilər.

Yaqub yeməyi İshaqa gətirdi.  “Səs Yaqubun səsidir, ancaq əllər Esavın əlləridir”.  Yeməyi yeyəndən sonra İshaq onun qarşısında diz çökərək oğluna xeyir-dua verdi.





Yaqub gedən kimi Esav İshaqın yanına gəldi. “Budur yeməyin”, o dedi. İshaq aldadıldığını bildi. “Mən xeyir-duanı dəyişdirə bilmərəm”, o ağladı. Esavın ürəyi nifrətlə doldu. O, Yaqubu öldürməyi qərara aldı.

Esavın hədələri Rivqanın qulağına çatdı.  O, Yaquba dedi: “Dayının evinə get və qardaşın sənin etdiklərini unudana qədər orada qal”.  İshaq razılaşdı ki, Yaqub öz anasının ailəsindən özünə arvad axtarmalıdır. Beləliklə, Yaqub evi tərk etdi.





Həmin gecə Yaqub başının altına yastıq əvəzi daş qoyaraq gecələdi. Ola bilsin ki, o tənha idi, bəlkə də qorxurdu. Lakin o, tək deyildi. Allah gözəl bir yuxu vasitəsilə onunla danışdı.



“MƏN BABAN İBRAHİMİN VƏ
İSHAQIN ALLAHI
RƏBBƏM.  MƏN
SƏNİNLƏYƏM.  BU T
ORPAĞI SƏNƏ VERƏCƏYƏM.  YER ÜZÜNÜN
BÜTÜN QƏBİLƏLƏRİ SƏNİN NƏSLİN VASİTƏSİLƏ
XEYİR-DUA ALACAQ”.  Allah danışandan sonra
Yaqub oyandı.  O qorxdu.

Yaqubun dayısı Lavan onu qəbul etdi.  Yaqub öz dayısı qızı Rəhiləni sevirdi və onunla evlənmək üçün yeddi il Lavan üçün işlədi.  Ancaq toy gecəsi Lavan Yaqubu aldatdı.



“Bu, Rəhilə deyil, Leadır, - Yaqub gileyləndi.  Sən mənə kələk gəldin”.  “Böyük qız birinci ərə getməlidir, - Lavan dedi.  İndi Rəhilə ilə evlən və daha yeddi il mənə xidmət et”.  Yaqub razılaşdı.  Ola bilsin ki, o, İshaqa və Esava qarşı kələk gəlməsini xatırladı.



Yaqubun on bir oğlu var idi. İllər keçdikcə o, öz ailəsini Kənan torpağına geri götürməyi arzulayırdı. Onun valideynləri orada idi. Lakin onu öldürməsini əhd edən Esav da orada idi.



Bunu etmək təhlükəsiz idimi? Bir gün Allah ona geri qayıtmasını dedi.  Yaqub öz ailəsini və mal-qarasını evə yola düşmək üçün topladı.



Necə də maraqlı bir səyahət idi. Esav dörd yüz adam ilə Yaqubu qarşılamağa gəldi!  Lakin o, Yaquba xətər yetirmədi.  O, Yaqubun qarşısına qaçdı və onu bağrına basdı.  Yaqub və Esav yenidən dost oldular və Yaqub sağ-salamat evə çatdı.



Fırıldaqçı Yaqub

Allahın Sözü, Müqəddəs Kitabdan
olan bir hekayədir

Yaradılış 25-33

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130

Son

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan. Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim. Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et. Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış! Yəhya 3:16**